SİYASƏT

# Amnesty International: 'Prezident ailəsinin maraqlarına qarşı çıxanlar sərt cəzalandırılır'

indicə




Hüquq müdafiəçisi Anar Məmmədli

"Amnesty International" insan haqları təşkilatı hüquq müdafiəçisi Anar Məmmədlinin törətmədiyi cinayətlərə görə 13 illik həbsə məhkum edildiyini bildirir. Qurumun Şərqi Avropa və Mərkəzi Asiya üzrə direktoru **Mari Strazers** deyib ki, A.Məmmədli barəsində hökm "ToplumTV işi" üzrə uzunmüddətli həbs cəzalarına məhkum edilən doqquz təqsirləndirilənə qarşı rəftarın təkrarıdır.

**"Bu hökmlər göstərir ki, hökumətin sui-istifadə hallarını ifşa edən, prezident İlham Əliyevin ailəsinin maraqlarına qarşı çıxan jurnalistlər və digər tənqidçilər sərt cəzalandırılır"**, – M.Strazers vurğulayıb.

Bəyanatda Azərbaycan hakimiyyətinin 2009-cu ildən bəri tənqidçi QHT-lərə və müstəqil media orqanlarına məhdudiyyətləri sərtləşdirdiyi vurğulanır. "Amnesty International" Azərbaycanın beynəlxalq tərəfdaşlarını bu getdikcə güclənən repressiyalara göz yummamağa, enerji və iqtisadi əməkdaşlığı insan haqlarından üstün tutmamağa çağırır.

İnsan haqları təşkilatı A.Məmmədlini və insan haqlarından dinc istifadəyə görə məhkum olunmuş digər şəxsləri dərhal və qeyd-şərtsiz azad etməyə çağırır.

## Məmmədli məhkəməni "siyasi tamaşa" adlandırıb

Sentyabrın 7-də Bakı Ağır Cinayətlər Məhkəməsi Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) rəhbəri **Anar Məmmədli**yə 13 il, onunla birlikdə mühakimə olunan ictimai fəal **Anar Abdulla**ya isə 12 il həbs cəzası kəsib. Onlar qaçaqmalçılıq, cinayət yoluyla əldə edilmiş vəsaitlərin leqallaşdırılması, qanunsuz sahibkarlıq və s. əməllərdə təqsirli bilinib. Saxta sənəd hazırlama və istifadə ittihamına isə xitam verilib. A.Məmmədli son sözündə siyasi sifarişlə həbs olunduqlarını vurğulayaraq məhkəmə prosesini "siyasi tamaşa" adlandırıb. Hüquq müdafiəçisi bildirib ki, məhkəmədə faktiki heç bir araşdırma aparılmayıb.

"ToplumTV işi" üzrə iyulda hökm çıxarılıb, oxşar ittihamlarla təqsirləndirilən jurnalist və fəallara 12 ildən 15 ilədək həbs cəzası verilib. Bu iş üzrə təqsirləndirilənlər də ittihamları siyasi motivli sayırlar.

Hüquq müdafiəçilərinin hesabatına görə, hazırda Azərbaycanda 328 siyasi məhbus var.

Azərbaycan rəsmiləri isə ölkədə heç kimin siyasi motivlərlə təqib olunmadığını bildirirlər. Onların iddiasına görə, həbs edilən şəxslər konkret cinayət əməllərinə görə məsuliyyətə cəlb olunublar.

Amma bir sıra beynəlxalq insan haqları qurumları, AŞPA, Avropa Parlamenti də Azərbaycanı siyasi təqibləri dayandırmağa çağırıb.

## Buna da bax:

Avropadan ToplumTV ilə bağlı cəzalara sərt reaksiya: 'Əliyevlə əlbir olublar'

Anar Məmmədli və Anar Abdullaya hökm oxundu: 'Həbsindən sonra anasının vəziyyəti kəskinləşdi...'

QHT işi: 'Əlimdə Ədliyyə Nazirliyinin idarə rəisinin imzalı, möhürlü məktubu var'

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur